## 5 Oktyabr - beynəlxalq müəllimlər günüdür

# Müəllim günü qeyd olundu

Oktyabr ayının 4-də Qəbələ rayon müəllimləri öz peşə bayramlarını qeyd etmək üçün möhtəşəmliyi ilə seçilən şəhər 5 saylı məktəbə toplaşmışdılar.

Bayram tədbirinin aparıcıları sözü rayon təhsil şöbəsinin müdiri Arifə Bayramovaya verdilər. Şöbə müdiri ilk öncə bütün təhsil işçilərini müəllimlər günü münasibətilə təbrik etdi. Natiq bildirdi ki, ölkə başçısı cənab İlham Əliyev təhsilə, müəllimə, məktəbə böyük diqqət və qayğı göstərir.





Dövlət başçısı dönə-dönə qeyd etmişdir ki, "Uşaqlar yaxşı məktəbdə oxumalı, müəllimlər də yaxşı məktəblərdə işləməlidirlər" Bu fikrin real nəticəini burada bu məktəbin timsalında görürük. Son illər rayonumuzda 30-a qədər yeni məktəb tikilmiş və ya əsaslı təmir olunmuşdur. Müəllimlərin əmək haqqı bir neçə dəfə artmışdır. Yaxşı haldır ki, diaqnostik qiymətləndirmə nəticəsində hazırlıqlı müəllimlərlə, işinə biganə yanaşan müəllimlər arasında maddi həvəsləndirmə fərqi real həllini tapmışdır. Belə ki, bilikli, bacarıqlı müəllimin işinə istər dərs bölgüsündə, istərsə də əmək haqqı hesablanmasında daha yüksək qiymət verilir ki, buda hər bir müəllimin öz üzərində işləməsi, dərsə daha məsuliyyətli yanaşması üçün stimul yaradır.

Rayon İcra hakimiyyətinin nümayəndəsi Vüsalə Rəsulova, Tüntül kənd orta məktəbin direktoru Telman Abdulxalıqov müəllimləri bayramları münasibətilə təbrik etmişlər. Qabaqcıl müəllimlərə rayon təhsil şöbəsinin Fəxri fərmanları və hədiyyələri təqdim olunmuşdur.

Zarağan kənd 2 nömrəli tam orta məktəbin, rayon uşaq-gənclər yaradıcılıq mərkəzinin uşaq bədii özfəaliyyət kollektivləri müəllimlərini rəngarəng çıxışları ilə təbrik etmişlər.

**"Qəbələ"**
**İlkin Vəlizadə (foto).**

## 2018-ci ildə 600-dən yuxarı balla ali məktəblərə daxil olan məzunlarımız

| № | Soyadı, adı, atasının adı | Bitirdiyi məktəb | Bal | Daxil olduğu ali məktəb və fakültəsi |
|---|---|---|---|---|
| 1 | Mirzəyeva Diana Niyaz qızı | Dizaxlı kənd tam orta məktəbi | 690 | ATU- müalicə işi |
| 2 | Məmmədov Tural Ramiz oğlu | Bunud kənd tam orta məktəbi | 685 | ADİU-maliyyə işi |
| 3 | Cəfərova Fidan Zaur qızı | Qəbələ şəhər 2 nömrəli tam orta məktəb | 685 | ADİU - maliyyə işi |
| 4 | Ağayeva Dilbər Yasər qızı | Həmzəli kənd tam orta məktəbi | 682 | ATU-müalicə işi |
| 5 | Eyyubova Aytac Səyavuş qızı | Vəndam qəsəbə 1 nömrəli tam orta məktəb | 680 | ADU-ingilis dili |
| 6 | Ziyadova Türkan Sübhi qızı | Qəmərvan kənd tam orta məktəbi | 663 | ATU- müalicə işi |
| 7 | Çələbizadə Vaqif İlham oğlu | Xırxatala kənd tam orta məktəbi | 662 | ATU-müalicə işi |
| 8 | Əsədova Gülxanım Firdovsi qızı | Kürd kənd tam orta məktəbi | 657 | ATU-tibbi profilaktika |
| 9 | İsmayılov Salman Talıb oğlu | Vəndam qəsəbə 2 nömrəli tam orta məktəb | 657 | Xəzər Universiteti- neft və qaz mühəndisliyi |
| 10 | Cabbarlı Səməd Sidqi oğlu | Qəbələ nömrəli 3 nömrəli tam orta məktəb | 656 | Xəzər Universiteti-kompüter elmləri |
| 11 | Xasıyeva Lamiyə Təbriz qızı | Dizaxlı kənd tam orta məktəbi | 655 | ATU- tibbi profilaktika |
| 12 | Əşrəfli Allahverdi Aqil oğlu | Yemişanlı kənd tam orta məktəbi | 653 | Naxçıvan Dövlət Universiteti-tibb fakültəsi |
| 13 | Abbasbəyli Nəzrin İldırım qızı | Mıxlıqovaq kənd tam orta məktəbi | 652 | ATU- müalicə işi |
| 14 | Yunus Ruxsarə Vüqar qızı | Uludaş kənd tam orta məktəbi | 650 | BDU-riyaziyyat-informatika |
| 15 | İsgəndərov Şöhrət Yaşar oğlu | Vəndam qəsəbə 2 nömrəli tam orta məktəb | 645 | ADNSU-neft və kimya mühəndisliyi |
| 16 | Rəcəbalıyeva Ülviyyə Yaşar qızı | Hacıalılı kənd tam orta məktəbi | 645 | Xəzər Universiteti-riyaziyyat |
| 17 | Aslanbəyli Türkan Vüqar qızı | Uludaş kənd tam orta məktəbi | 644 | ATU-tibbi profilaktika |
| 18 | Abdurrəhmanova Gülçöhrə Vüqar | Nohurqışlaq kənd tam orta məktəbi | 644 | BDU-turizm və menecment |
| 19 | Mİrzəşərifov Orxan Kərim oğlu | Yemişanlı kənd tam orta məktəbi | 643 | ATU-tibbi profilaktika |
| 20 | Hacıbəyli Hikmət Arzu oğlu | Nohurqışlaq kənd tam orta məktəbi | 641 | ADNSU-neft mühəndisliyi |
| 21 | Baxşiyeva Sevinc Adışirin qızı | Kürd kənd tam orta məktəbi | 641 | ADNSU-kimya mühəndisliyi |
| 22 | Quluyeva Gülsüm Seymur qızı | Qəbələ şəhər 3 nömrəli tam orta məktəb | 639 | ADU-ingilis dili və ədəbiyyatı |
| 23 | Səlimov Rəfail Mahir oğlu | Qəbələ şəhər 3 nömrəli tam orta məktəb | 637 | Bakı Mühəndislik Universiteti-informatika və texnologiya mühəndisliyi |
| 24 | Əzizli Ülviyyə Elman qızı | Vəndam qəsəbə 1 nömrəli tam orta məktəb | 637 | ADU-tərcümə |
| 25 | Ağayev Soltan Bəhman oğlu | Həmzəli kənd tam orta məktəbi | 634 | ADNSU-neft və qaz mühəndisliyi |
| 26 | Müslümov Cəmil Cəlil oğlu | Vəndam qəsəbə 1 nömrəli tam orta məktəb | 632 | ADİU - mühasibat uçotu |
| 27 | Nemətli Sahilə Cəmaləddin qızı | Böyük Əmili kənd tam orta məktəbi | 630 | Bakı Mühəndislik Universiteti- mühasibat uçotu |
| 28 | Əhmədli Zaman Telman oğlu | Tüntül kənd tam orta məktəbi | 629 | Azərbaycan Polis Akademiyası |
| 29 | Eyyublu Aysu Zaur qızı | Qəbələ şəhər 2 nömrəli tam orta məktəb | 629 | ADU-ingilis dili |
| 30 | Məmmədyarov Elbəy Ramiz oğlu | Soltannuxa kənd tam orta məktəbi | 628 | ADİU-maliyyə işi |
| 31 | Salehli Şahin Zöhrab oğlu | Vəndam qəsəbə 2 nömrəli tam orta məktəb | 627 | ATU - tibbi profilaktika |
| 32 | Əzizli Yusif Elşən oğlu | Qəbələ şəhər 4 nömrəli tam orta məktəb | 626 | ADNSU-neft və qaz mühəndisliyi |
| 33 | Cabbarov Məlik Cabbar oğlu | Zarağan kənd 1 nömrəli tam orta məktəb | 626 | ADNSU-mühasibat uçotu |
| 34 | Hüseynova Rəna Əlvan qızı | Vəndam qəsəbə 1 nömrəli tam orta məktəb | 624 | Naxçıvan Dövlət Universiteti-tibb fakültəsi |
| 35 | Məsimov Orxan Eldar oğlu | Həmzəli kənd tam orta məktəbi | 622 | ADNSU-informasiya texnologiyaları |
| 36 | Osmanov İsmayıl Zakir oğlu | Nohurqışlaq kənd tam orta məktəbi | 619 | Azərbaycan Polis Akademiyası |
| 37 | Baxışova Asiman Hacıbaba qızı | Bunud kənd tam orta məktəbi | 617 | BDU-dil-ədəbiyyat |
| 38 | Mirzəliyeva Səbinə Tərlan qızı | Qəbələ şəhər 4 nömrəli tam orta məktəb | 616 | ADİU-mühasibat uçotu və audit |
| 39 | Kamilova Sevinc Emil qızı | Abrıx kənd tam orta məktəbi | 616 | ATU- müalicə işi |
| 40 | Xəlilova Aygün Fəzail qızı | Mirzəbəyli kənd tam orta məktəbi | 616 | ADPU-riyaziyyat-informatika |
| 41 | Atayeva Nərmin Azad qızı | Qəbələ şəhər 2 nömrəli tam orta məktəb | 616 | ADU- ingilis dili və ədəbiyyatı |
| 42 | Qasımova Fidan Eldəniz qızı | Xırxatala kənd tam orta məktəbi | 613 | ADU-ingilis dili |
| 43 | Abdurrəhmanlı Mehrac Əfqan qızı | Mıxlıqovaq kənd tam orta məktəbi | 610 | ADİU-mühasibat uçotu və audit |
| 44 | Aslanzadə Səidə Orxan qızı | Mirzəbəyli kənd tam orta məktəbi | 609 | BDU-kompüter elmləri |
| 45 | Əzizova Bənövşə Əzizullah qızı | Bunud kənd tam orta məktəbi | 609 | Bakı Mühəndislik Universiteti- sənaye mühəndisliyi |
| 46 | Gözəlova Nərminə Vasif qızı | Qəbələ şəhər 5 nömrəli tam orta məktəb | 607 | ADNSU-kompüter mühəndisliyi |
| 47 | Əmrahov Murad Bəşir oğlu | Bum qəsəbə tam orta məktəbi | 606 | Bakı Mühəndislik Universiteti- kompüter mühəndisliyi |
| 48 | Veyisov Rəfi Anar oğlu | Vəndam qəsəbə 3 nömrəli tam orta məktəb | 603 | ATU- tibbi profilaktika |
| 49 | Bəşirova Gülzar Elşən qızı | Qəbələ şəhər 5 nömrəli tam orta məktəb | 601 | ADU- ingilis dili |
| 50 | Abdurrəhmanzadə Zəhra Azad qızı | Vəndam qəsəbə 2 nömrəli tam orta məktəb | 601 | BDU- informatika mühəndisliyi |

## Uğurlar arzu edirik

Murad İsayev Zarağan kənd 2 saylı tam orta məktəbin II sinif şagirdidir. Müəllimlər deyir ki, o, nümunəvi şagirddir. Murad həm də şahmatı sevir. Şahmata olan



böyük həvəsini nəzərə alan anası Nuranə xanım onu Qəbələ Rayon Uşaq-Gənclər İdman-Şahmat məktəbinə gətirmişdir. Burada dərsdən sonrakı vaxtlarda Muradla məktəbin məşqçi-müəllimi Hümeyla Məmmədova məşğul olur. Məşqçi deyir ki, Murad istedadlı şahmatçıdır. O, yarışlarda müntəzəm iştirak edir və çox vaxt qələbə qazanır. Buna görə də o, bu ilin avqust ayında Azərbaycan Respublikası Təhsil Nazirliyi tərəfindən Bakı şəhərində təşkil olunmuş Respublikanın məktəbli şahmatçılarının bir həftəlik təlim-məşq və istirahət toplantısına dəvət olunmuş və həmin tədbirlərdə iştirak etmişdir. Burada o, təcrübə, yeni biliklər və dostlar qazanmışdır.

Hal-hazırda Murad dərsdənkənar vaxtlarında şahmatın sirrlərini öyrənməklə məşğuldur. Onun gələcəkdə Respublika daxilində və xaricdə keçiriləcək beynəlxalq yarışlarda iştirakı nəzərdə tutulmuşdur. Bu yolda körpə addımlar atan Murada uğurlar arzu edirik. Murad da öz növbəsində həmyaşıdlarını Uşaq-Gənclər İdman-Şahmat məktəbinə dəvət edir.

Muradı və həmyaşıdlarını həvəsləndirmək üçün ona həsr olunmuş bu şeiri də oxucularımıza təqdim edirik.

### Şahmatçı Murad

*Siz tanıyın Muradı*
*O, çox sevir şahmatı.*
*Şahı qoruyan zaman,*
*Piyada olur qurban.*

*Fili yavaş tərpədir,*
*Topsa möhkəm yerdədir.*
*Oynadır birdən atı,*
*At qorxudur Muradı.*

*Düşəndə çətinə iş,*
*Vəzirlə edir gediş.*
*Rəqibin əsir dizi-*
*Muradın gülür üzü.*

***Ədalət ƏLİ,***
***Azərbaycan Respublikasının***
***Qabaqcıl Təhsil işçisi.***